

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 mart 2023-cü il №22 (2734) https://mod.gov.az Qiymətı 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bizə qarşı hər bir çirkin plana bizim güclü iradəmiz, güclü siyasətimiz, müzəffər Ordumuz cavab verəcək



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva martın 18-də Tərtər rayonunun Talış kəndində görülən işlərlə tanış olublar.*

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Talış kəndində Xatirə daşına baxış keçiriblər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 2020-ci il oktyabrın 3-də bu strateji ərazini düşməndən azad edib. Talış kəndində yüksək nöqtələrdən birində bu ərazinin işğaldan azad olunduğu gün Müzəffər Ali Baş Komandan tərəfindən paylaşılan tvitin mətninin həkk olunduğu Xatirə daşı yerləşdirilib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma Talış kəndinin Baş planı əsasında görülən işlər barədə məlumat verib.

Xatırladaq ki, dövlətimizin başçısı 2021-ci il oktyabrın 4-də Talış kəndindəki Bayraq meydanında Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb. İşğaldan azad edildikdən sonra Azərbaycan Prezidentinin tapşırıqları əsasında Talış kəndində tikinti-bərpa işləri aparılıb, yeni evlər inşa olunub, zəruri infrastruktur yaradılıb. Kənddə aparılan təmir-bərpa işlərinin birinci mərhələsi çərçivəsində Bayraq meydanında abadlıq işləri görülüb. Talış kəndinin yüksək nöqtələrindən birində sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət guşəsi və seyr meydanı tikilib.

Görülən işlər çərçivəsində 10 qeyri-yaşayış və ictimai iaşə obyekti də bərpa olunub və tamamilə yenidən qurulub. Bu obyektlərin ərazisində abadlıq işləri görülüb. Bunlardan biri də inzibati binadır.

Dövlətimizin başçısı və birinci xanım inzibati binada yaradılan şəraitlə tanış olublar.

Mövcud ikimərtəbəli inzibati bina əsaslı təmir edilib, dam örtüyü sökülərək yenidən qurulub. İnzibati binanın qarşısındakı ərazidə kənd meydanının bərpası həyata keçirilib və burada geniş yaşıllaşdırma işləri aparılıb. Binanın bütün kommunikasiya sistemləri yenidən qurulub. İnzibati bina yanğın siqnalizasiya, rabitə və videomüşahidə sistemləri ilə təchiz edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Talış kəndindəki uşaq bağçasında yaradılan şəraitlə də tanış olublar. Uşaq bağçasının birmərtəbəli binası da əsaslı təmir edilib. Bütün kommunikasiya sistemləri yenidən qurulub və bina yanğın siqnalizasiya, rabitə, videomüşahidə və fövqəladə hal xəbərverici sistemləri ilə təchiz edilib. Binanın daxili hissəsi bütün lazımi texniki xidmət avadanlığı ilə təchiz olunub. Həyətyanı ərazidə uşaqlar üçün rezin örtüklü oyun meydançası və iki söhbətgah inşa olunub. Bir sözlə, burada balacaların vaxtlarını maraqlı və səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb.

Talış kəndindəki 78 şagird yerlik məktəb binası ilə tanışlıq zamanı məlumat verilib ki, ikimərtəbəli binanın da bərpası və yenidən qurulması həyata keçirilib. Dam örtüyü tamamilə yenilənib, kommunikasiya sistemləri yenidən qurulub. Bina yanğın siqnalizasiya, rabitə, zəng, videomüşahidə sistemləri ilə təchiz edilib. Təhsil ocağının binasının birinci və ikinci mərtəbələrində sinif, tibb və müəllimlər otaqları, mansardda isə akt zalı və kitabxana yerləşir. Məktəbin həyətyanı ərazisində süni ot örtüklü futbol və idman meydançaları yaradılıb.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Talış kəndində Novruz tonqalını alovlandırıblar.

Sonra dövlətimizin başçısı Azərbaycan xalqını bayram münasibətilə təbrik edib.

### Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına müraciəti

- Əziz bacılar və qardaşlar.

Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Üçüncü dəfədir ki, Azərbaycan xalqına Novruz təbriklərimi doğma Qarabağ diyarından deyirəm. Bu, böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi bizə bəxş edən qəhrəman şəhidlərimizin əziz xatirəsini bu gün biz hörmətlə yad edirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bu xoşbəxtliyi bizə bəxş edən qəhrəman Azərbaycan hərbçilərini buradan səmimiyyətlə salamlayıram. Onların canı-qanı bahasına biz doğma torpaqlarımıza qayıtmışıq.

İkinci Qarabağ müharibəsi dövründə bütün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bütün Azərbaycan xalqını bir daha salamlayıram. Bütün Azərbaycan xalqına yeni-yeni uğurlar, yeni qələbələr arzulayıram!

Otuz ilə yaxın müddət ərzində torpaqlarımız işğal altında idi. Ermənistan xalqımıza qarşı etnik təmizləmə siyasəti aparırdı. Yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından didərgin salınmış, qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı soyqırımı törədilmişdir, ədalətsizlik törədilmişdir, hərbi cinayətlər törədilmişdir. Biz bunu heç vaxt unutmayacağıq. Biz bunu heç vaxt unutmamalıyıq.

Biz otuz il ərzində işğalla bağlı bütün beynəlxalq təşkilatlarda öz haqq səsimizi ucaltmışdıq. Ancaq əfsuslar olsun ki, bizim sözümüzə reaksiya verən qurum tapılmadı. Əksinə, Qarabağ münaqişəsi ilə məşğul olmuş vasitəçilər məsələni həll etməyə yox, dondurmaq üçün səylər göstərirdi. İndi İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində əldə edilmiş yeni məlumatlar bunu bir daha təsdiqləyir.

Biz öz haqqımızı, öz hüquqlarımızı döyüş meydanında bərpa etdik. Qırx dörd gün ərzində mənfur düşməni torpaqlarımızdan qovduq və Qarabağda Azərbaycan Bayrağını ucaltdıq. Bu, çoxəsrlik Azərbaycan tarixinin ən parlaq səhifəsidir. Qırx dörd gün ərzində Azərbaycan xalqı ordumuzun arxasında dayaq kimi, yumruq kimi birləşdi. Biz işğal edilmiş torpaqları qan tökərək azad etdik.

Əfsuslar olsun ki, bu gün İkinci Qarabağ müharibəsinin ibrət dərsi Ermənistana hələ ki, dərs olmayıb. Çünki biz görürük ki, Ermənistanda revanşist qüvvələr baş qaldırıb. Ermənistanda yenə də Azərbaycana qarşı, Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları qaldırılır. Biz Ermənistan rəhbərliyini bu çirkin əməllərdən çəkindirmək üçün xəbərdar edirik. Ermənistanın arxasında dayanan bəzi ölkələri də bax, buradan - azad edilmiş Talış kəndindən xəbərdar edirik ki, əl çəkin bu çirkin əməllərdən. Azərbaycan dövlətinin, xalqının iradəsinə heç bir kənar qüvvə təsir edə bilməz.

Otuz il ərzində Ermənistan və onun havadarları, onun arxasında duran müttəfiqləri bizi haqq işimizdən çəkindirmək üçün müxtəlif imkanlardan, müxtəlif vasitələrdən istifadə etməyə çalışırdılar, bizi mənasız danışıqlarla yormaq istəyirdilər, bizi işğalla barışdırmaq istəyirdilər.

İşğal dövründə Ermənistanla əməkdaşlığa başlamaq üçün nə qədər səylər göstərilmişdir. Azərbaycan xalqı və Azərbaycan dövləti güclü iradə göstərərək bütün bu cəhdləri dəf etmişdir. Çünki bizim işimiz haqq işidir. Mən işğal dövründə dəfələrlə deyirdim ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, biz müharibə yolu ilə öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik. Görün, Ermənistan rəhbərliyi nə qədər azğınlaşmışdır ki, "Qarabağ Ermənistandır və nöqtə" sözlərini deyərək, Azərbaycan xalqının haqlı hüququnu əlimizdən almaq istəyirdi. Əfsuslar olsun ki, Ermənistanın arxasında dayanan qüvvələr, o cümlədən ovaxtkı Minsk qrupuna həmsədrlik edən ölkələr bu beyanata heç bir reaksiya verməmişdilər. İndi Azərbaycan öz doğma torpaqlarını azad edəndən sonra görün, bizə qarşı nə qədər ədalətsiz addımlar atılır, nə qədər çirkin əməllər törədilir. Erməni havadarları, Ermənistanın işğalçılıq siyasətinə şərik olan ölkələr bizə qarşı informasiya müharibəsi elan ediblər. Bəzi ölkələrdə Azərbaycanın daxili işləri ilə bağlı hansısa konfranslar, simpoziumlar təşkil edirlər. Bəzi ermənipərəst ölkələr dünya xəritəsində olmayan, Azərbaycanın ərazisində mövcud olmayan dırnaqarası "Dağlıq Qarabağın müstəqilliyini" tanıyırlar. Bu, nə deməkdir? O deməkdir ki, işğal dövründə bütün bu qüvvələrin yeganə amalı bu işğalı əbədiləşdirmək idi. Bu münaqişəni həll etmək yox, dondurmaq idi.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bizə qarşı hər bir çirkin plana bizim güclü iradəmiz, güclü siyasətimiz, müzəffər Ordumuz cavab verəcək

(Əvvəli 1-ci səhifədə)

İkinci Qarabağ müharibəsi dövründə bizə qarşı nə qədər təzyiqlər oldu, Ermənistana nə qədər yardımlar göndərildi. Hər gün silahlarla dolu bir neçə yük təyyarəsi göndərilirdi, xarici ölkələrdən muzdlular göndərilirdi. Ermənistanın müttəfiqləri bizi müxtəlif yollarla dayandırmağa çalışırdılar. Heç kim bizim qabağımızda dura bilmədi. Mən demişdim ki, öldü var, döndü yoxdur, ya Qarabağın azadlığı, ya ölüm! Heç kim bizim qabağımızda dura bilmədi, bu gün də dura bilmir, sabah da dura bilməyəcək. Əgər kimsə fikirləşir ki, bizə qarşı cızılmış çirkin planlar həyata keçə bilər, səhv edir. Bizə qarşı hər bir çirkin plana bizim güclü iradəmiz, güclü siyasətimiz, müzəffər Ordumuz cavab verəcək.

"Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərliyi bu gün görün nə deyir. Bu gün deyir ki, bizə imkan verin 29 min kvadratkilometr ərazidə biz yaşayaq. Bunu işğal dövründə niyə demirdi? İşğal dövründə nə üçün bizim işğal edilmiş bütün torpaqları dırnaqarası "Dağlıq Qarabağ respublikası" adı altında birləşdirməyə cəhd göstərmişdilər, kitablar dərc edilirdi. Bu çirkin əməllərə, bu qanunsuz əməllərə göz yuman beynəlxalq təşkilatlar, bəzi ermənipərəst ölkələr nə üçün o vaxt Ermənistana irad tutmurdular? Biz nə qədər ikili standartlarla üzləşməliyik? Biz nə qədər riyakarlıqla üzləşməliyik?

İndi biz öz torpağımızı, beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərini güc tətbiq edərək azad etmişik, BMT Nizamnaməsinə uyğun şəkildə öz ərazi bütövlüyümüzü təmin etmişik, düşməni qovmuşuq, Ermənistan ordusunu məhv etmişik, diz çökdürmüşük. Bu, bizim haqlı vəzifəmizdir. Bu gün biz qurub-yaradırıq. O cümlədən burada, Talış kəndində, Suqovuşan qəsəbəsində, Hadrutda, Şuşada, bütün başqa azad edilmiş torpaqlarda qurub-yaradırıq. Ermənistan bu əraziləri viran qoyub, talan edib. Otuz il ərzində daşları bir-bir söküb həm Ermənistanda, həm də ki, Ermənistanın qonşu ölkəsində bazarlarda satdırıb. Biz isə qurub-yaradırıq.





Görün, Talış kəndinin yenidən qurulmasına başlanmasından hələ bir il keçməyib. Artıq Talış kəndinə 20 ailə qayıdıbdır və 180-ə yaxın ailə qayıdacaqdır. Bu gündən bir il keçmədən Talış kəndində 180-ə yaxın ailə yaşayacaq. Bu ailələr üçün bütün imkanlar yaradılıb. İndi hər kəs görə bilər nə gözəl evlər, məktəb, uşaq bağçası, ictimai binalar tikilib, məşğulluq üçün şərait yaradılıb. Biz qurub-yaradan xalqıq. Ermənistandan fərqli olaraq, biz öz ərazimizdə qurub-yaradırıq.

Bu gün "Qarabağ Ermənistandır və nöqtə" deyən, bizi yeni müharibə ilə hədələyən Ermənistan bilmir hansı qanadın altında özünə yeni himayədar tapsın. Bütün dünyaya öz satqınlığını, nankorluğunu bir daha göstərir. İndi özü üçün yeni ağa axtarışındadır. Bilmir kimin ayağının altına yıxılsın. Bunun heç bir xeyri olmayacaq. Ermənistanın 29 min kvadratkilometr ərazidə rahat yaşaması üçün bir şərt var - bizim şərtlərimizi qəbul etməlidir, rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən, delimitasiya işlərini aparmalıdır. Ancaq o təqdirdə onlar 29 min kvadratkilometr ərazidə, - hansı ki, indi onlar ancaq bunu istəyirlər, - rahat yaşaya bilərlər. Əgər ərazi bütövlüyümüzü tanımasa, biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nəticəsi nə olacaq, bunu Ermənistan və onun arxasında duran riyakar ölkələr yaxşı bilməlidirlər. Yaxşı bilməlidirlər ki, bizə qarşı heç bir çirkin plan həyata keçməyəcək. Bizim həm gücümüz var, həm dostlarımız var, dünyada güclü mövqelərimiz var və güclü iradəmiz var. Müharibə dövründə və müharibədən sonrakı dövrdə biz bunu nümayiş etdirmişik.

Talış kəndi 2020-ci il oktyabrın 3-də azad edilmişdir. İkinci Qarabağ müharibəsi başlayandan bir həftə sonra qan tökərək biz artıq Talış kəndini azad etdik, eyni zamanda, Suqovuşan qəsəbəsini azad etdik.

İkinci Qarabağ müharibəsi dövründə o hərbi əməliyyatın çox böyük əhəmiyyəti var idi. Çünki biz öz azadlıq savaşımızı müxtəlif istiqamətlərdə aparırdıq, o cümlədən bu istiqamətdə. Ona görə bu istiqamətdə əldə edilmiş uğurlar müharibənin gələcək gedişatı üçün çox böyük önəm daşıyırdı, eyni zamanda, ordumuzun və xalqımızın mənəvi ruhunu da yüksəldirdi. Çünki Talış kəndinin strateji əhəmiyyəti hər kəsə bəlli idi.

Biz 44 gün ərzində ancaq irəli gedirdik, bir gün belə geri addım atmadıq. Biz 44 gün ərzində döyüş meydanında Azərbaycan xalqının gücünü və yüksək mənəvi keyfiyyətlərini göstərmişdik. Bir nəfər də olsun bizim ordumuzdan qaçan olmamışdır. Ermənistan ordusunda son məlumata görə 10 min yox, 11 min fərari olmuşdur. Bunu onlar yaddan çıxarmasınlar və yaddan çıxarsalar, biz onların yadına salacağıq. İkinci Qarabağ müharibəsinin nəticələrini heç kim yaddan çıxarmasın. Yeni reallıqları hər kəs qəbul etməlidir. Bizim torpaqlarımızın 30 il ərzində işğal altında olmasını heç kim yaddan çıxarmamalıdır və gələcək sülh müqaviləsi üçün bu önəmli amillər hər kəsin beynində olmalıdır. Çünki biz bəzi hallarda görürük, sanki heç müharibə olmayıb, sanki işğal olmayıb, sanki Ağdamı "Qafqazın Xirosimasına" döndərən olmayıb. Bunu unutmaq və bizə unutdurmaq istəyirlər. Bu, heç vaxt olmayacaq. İşğal reallıqları, müharibə reallıqları, postmüharibə reallıqları sülh danışıqlarında öz əksini tapmalıdır və tapacaq. Əks təqdirdə, heç bir sülh müqaviləsi olmayacaq. Ermənistana lazım deyilsə, bizə də lazım deyil. Ondan sonra görək, baxaq bunun axırı nə olacaq?!

Biz bu gün doğma Qarabağ torpağında, doğma Zəngəzur torpağında dayanmışıq və burada əbədi yaşayacağıq. Azərbaycan xalqı haqlı olaraq qürur hissi ilə yaşayır. Bizim hər birimiz, xaricdə yaşayan azərbaycanlılar da daxil olmaq şərtilə iki il yarım müddət ərzində qürur hissi ilə yaşayırıq. Hər kəsə, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq və ərazi bütövlüyünü öz gücümüzə bərpa edən ölkə kimi bundan sonra da ancaq və ancaq irəliyə gedəcəyik. Necə ki, Vətən müharibəsində 44 gün ərzində irəliyə getmişiksə, müharibə başa çatandan sonra bütün sahələr, bütün istiqamətlər üzrə irəliyə gedirik və gedəcəyik.

Mən əziz xalqımı qarşıdan gələn Novruz bayramı münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm, bir daha çıxışımı məşhur olan sözlərlə tamamlamaq istəyirəm: "Qarabağ Azərbaycandır!".

* * *

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Klub icma mərkəzində yaradılan şəraitlə maraqlanıblar.

Dövlətimizin başçısı və birinci xanım Talış kəndində fərdi evlərdə aparılan təmir-bərpa işləri ilə də tanış olublar.



Məlumat verilib ki, birinci mərhələdə 20 ev bərpa edilib və yenidən qurulub. Evlərin daxili hissələri və fasadı əsaslı təmir edilib, dam örtükləri tamamilə sökülərək yenilənib. Daxili və xarici divarlarda konstruktiv möhkəmləndirmə işləri yerinə yetirilib. Hər evin həyətyanı ərazisində əsaslı landşaft işləri görülüb, fərdi əkin sahələri yaradılıb və təsərrüfat anbarları inşa edilib. Bütün evlərin mövcud hasarları sökülüb, əvəzində yeni hasarlar tikilib. Evlərin daxili kommunikasiya xətləri yenidən qurulub.

Bildirilib ki, Böyük Qayıdış Proqramı çərçivəsində martın 16-da Tərtər rayonunun Talış kəndinə ilkin mərhələdə Bakı, Bərdə, Tərtər, Samux və Goranboyda əsasən ağır şəraitdə, qəzalı vəziyyətdə olan müvəqqəti məskunlaşma yerlərində yaşayan 20 ailə köçürülüb. İlk mərhələdə Talış kəndində məskunlaşdırılan 20 ailə arasında şəffaflıq və ədalətlilik prinsipləri əsasında ev bölgüsü aparılması məqsədilə püşkatma keçirilib. Püşkatma nəticəsində ailələrin hər birinə veriləcək evin ünvanı müəyyənləşdirilib. Onlardan 15-i üçotaqlı, 1-i ikiotaqlı, 4-ü dördotaqlı fərdi evlə təmin olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva martın 18-də Tərtər rayonuna səfər ediblər.

Dövlətimizin başçısı əvvəlcə Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən 2021-ci il oktyabrın 3-də Tərtər rayonunda təməli qoyulan və 4 yaşayış məntəqəsini birləşdirən yeni avtomobil yolunun uzunluğu 22 kilometrdir. Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası yeni avtomobil yolunun eni 19 kilometrlik hissədə 9 metr, 3 kilometrlik hissədə isə 6 metr təşkil edir.

Bu yolun inşası layihəsi çərçivəsində İncəçay üzərində uzunluğu 84 metr olan avtomobil körpüsü tikilib. Üçaşırımlı körpünün eni 14,5 metrdir. Körpü 9 bal seysmiklik nəzərə alınmaqla inşa edilib.

Yolda aparılan tikinti işləri inşaat norma və qaydalarının tələblərinə uyğun yüksək keyfiyyətlə həyata keçirilib. Layihə üzrə yolboyu avtobus dayanacaqları inşa edilib, hərəkətin normal təşkili üçün digər zəruri infrastruktur yaradılıb.

Prezident İlham Əliyevə Tərtər rayonunun Talış kəndinin daxili yollarının tikintisi layihəsi barədə də məlumat verildi. Bildirildi ki, kənddaxili yolların ümumi uzunluğu 4,2 kilometrdir.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bizə qarşı hər bir çirkin plana bizim güclü iradəmiz, güclü siyasətimiz, müzəffər Ordumuz cavab verəcək

**(Əvvəli 2-ci səhifədə)**

Qeyd edək ki, Tərtər rayonunun işğaldan azad edilmiş Talış, Goranboy rayonunun Tapqaraqoyunlu və Qaşaltı Qaraqoyunlu kəndlərini keçməklə Naftalan şəhərinə doğru uzanan yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişi ilə bərabər, bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək. Yeni yol, həmçinin Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə rahat və təhlükəsiz hərəkəti təmin edəcək.

* * *



Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbə tam orta məktəbində yaradılan şəraitlə tanış olublar.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verib.

Qeyd edək ki, 2022-ci il martın 20-də dövlətimizin başçısı və birinci xanım Suqovuşana səfərləri çərçivəsində qəsəbədəki yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında olmuş, təhsil müəssisəsindəki vəziyyətlə maraqlanmışdılar. Prezident İlham Əliyev məktəb binasının əsaslı təmirinə başlanılması və işlərin yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı tapşırıqlar vermişdi.

Diqqətə çatdırılıb ki, ərazisi bir hektar olan məktəbdə 12 sinif otağı var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin informatika kabineti, kitabxana, iki laboratoriya, 72 nəfərlik akt zalı və yeməkxana var. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil ocağının həyətində abadlıq işləri görülüb, futbol, basketbol və açıq oyun meydançaları yaradılıb.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə dağıdılan təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Bu, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əksini tapıb. Tədbirlər Planına əsasən, Elm və Təhsil Nazirliyinə 2022-2026-cı illərdə ərazi planlaşdırma sənədlərinə uyğun olaraq, yaşayış məntəqələrində təhsil müəssisələrinin tikintisi və bərpası ilə bağlı təkliflərin hazırlanması tapşırılıb.

Sənəddə qeyd edilib ki, Şuşa rayonunda 7, Ağdam rayonunda 29, Füzuli rayonunda 23, Zəngilan rayonunda 21, Kəlbəcər rayonunda 30, Laçın rayonunda 21, Qubadlı rayonunda 16, Cəbrayıl rayonunda 25, Xocavənd rayonunda 20, Tərtər rayonunda (Suqovuşan və Talış kəndləri daxil olmaqla) 5 məktəbəqədər və ümumi təhsil müəssisəsinin tikintisi və bərpası nəzərdə tutulur.

* * *

Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Suqovuşan qəsəbəsində inşa olunacaq yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına məhəllə barədə məlumat verib.

Bildirilib ki, ümumi sahəsi 2 hektardan çox olan məhəllədə 25-i birotaqlı, 80-i ikiotaqlı, 75-i üçotaqlı, 10-u isə dördotaqlı olmaqla ümumilikdə 190 mənzil inşa ediləcək.

Məhəllədə, həmçinin futbol, idman və uşaq meydançaları, transformator yarımstansiyası və digər zəruri infrastruktur obyektlərinin tikintisi nəzərdə tutulur. Burada, həmçinin geniş yaşıllıq zolaqları da salınacaq.

Prezident İlham Əliyev yaşayış məhəlləsinin təməlini qoyub.

* * *

Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Suqovuşan su anbarının və ondan çıxan magistral su kanalının əsaslı təmiri, su anbarı boyunca yaradılan turizm infrastrukturu obyektlərinin tikintisi ilə tanış olublar.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Birinci Dövlət Proqramı çərçivəsində əsas infrastruktur obyektlərinin təmir-bərpa və yenidənqurma layihələri çərçivəsində Suqovuşan su anbarının və ondan çıxan magistral su kanalının əsaslı təmirinə başlanılıb. Hazırda su anbarının divarlarına beton örtüyün vurulması, oradakı bütün avadanlıqların əsaslı təmiri həyata keçirilir, magistral kanalda zəruri işlər görülür. Eyni zamanda, Suqovuşan su anbarı boyunca turizm infrastruktur obyektlərinin yaradılmasına başlanılıb. Burada Turizm İnformasiya Bürosu inşa olunur, sahilboyu park salınır, avtodayanacaq tikilir.

Qeyd edilib ki, Qarabağ iqtisadi rayonunda "Xaçınçay", "Köndələnçay-1", "Köndələnçay-2", "Köndələnçay-3" su anbarlarında paralel olaraq aparılan bərpa, əsaslı təmir və yenidənqurma işlərinin bu ilin sonunadək başa çatdırılması nəzərdə tutulur.

**AZƏRTAC-ın materialları əsasında**

# Yüksək döyüş hazırlığı sabahın qələbəsidir

Hərbi hissənin şəxsi heyəti İkinci Qarabağ müharibəsində böyük qəhrəmanlıq və hünər göstərib. Ürəyi Vətən eşqi ilə döyünən zabit və əsgərlər düşmən üzərində qələbənin qazanılması naminə cəsarətlə vuruşublar. İçdikləri Hərbi andа sadiq qalaraq üzərlərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəliblər. Xalqımıza qələbə sevinci yaşadanların sırasında olublar.

Mayor Yalçın Ağayev söhbət zamanı dedi ki, Vətən müharibəsində qazandıqları qələbə ilə arxayınlaşmayan artilleriyaçılar yenə də təlim keçir, döyüş hazırlıqlarını artırırlar. Onu da deyim ki, zabit və əsgərlərimizin təkcə döyüş hazırlığı deyil, mənəvi-psixoloji hazırlığı da yüksək səviyyədədir. Çünki şəxsi heyət həm dərs və məşğələlərdə, həm də təlimlərdə fəal iştirak edir.

Zabit və əsgərlərin təlimini izlədik. Şəxsi heyət məşğələnin mövzusuna uyğun verilən tarşırıqları cəld hərəkətlərlə yerinə yetirirdi.

Çox keçmədi ki, məşğələdə fasilə elan olundu. Yaranmış vaxtdan istifadə edib zabit və əsgərlərlə söhbətləşdik. Öyrəndik ki, onlar İkinci Qarabağ müharibəsinin od-alovundan keçiblər. Döyüşlər zamanı üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəliblər.

Mayor Ayaz Baxışov İkinci Qarabağ müharibəsinin şərəf dolu günlərindən söz açaraq dedi ki, Vətən müharibəsi başlayan kimi bölmələrimizi Ağdam rayonuna apardılar. “Bu istiqamətdə döyüşlərimiz uzun çəkmədi. Üç gün davam edən döyüşdən sonra bizi Füzuli rayonuna göndərdilər. Artilleriyaçılarımız təyin olunmuş ərazilərə çatan kimi döyüşlərə atıldıq. Qısa müddət ərzində verilmiş koordinatlar üzrə erməni qəsbkarlarının mövqelərinə zərbələr endirməyə başladıq. Zabit və əsgərlərimiz böyük cəsarətlə vuruşurdular. Dəqiq hesablanmış artilleriya zərbələri düşmənin dayaq məntəqələrini, zirehli texnikalarını bir-birinin ardınca məhv edirdi. Bu zərbələrdən yağıların neçə-neçə zirehli texnikasının, artilleriya qurğularının, müşahidə məntəqələrinin külü göyə sovrulurdu. İştirakçısı olduğumuz bu döyüşlərdə erməni işğalçıları Azərbaycan zabitinin, Azərbaycan əsgərinin gücünü, qüdrətini gördülər. Ağdamdan başlayan döyüş yolumuz Füzulidən, Cəbrayıldan, Zəngilandan, Qubadlıdan keçdi.



Bu gün şəxsi heyət özüyeriyən artilleriya qurğusunun sirlərini daha dərindən mənimsəməyə çalışır. Məşğələnin mövzusu "Örtülü atəş mövqeyinin tutulması və tərk edilməsi"dir. Məşğələnin mövzusuna uyğun olaraq heyət nəfərləri tələb olunan tapşırıqları icra edirdilər”.

Söhbətimizi döyüş hazırlığını artıran heyət nəfərləri ilə davam etdirdik. Heyət komandiri gizir Şahin Poladzadə də İkinci Qarabağ müharibəsində iştirak edib. Şərəfli döyüş yolu keçib. Əməliyyatlarda göstərdiyi şücaəti medallarla qiymətləndirilib. Şahin yenə də xidmətini böyük həvəslə davam etdirir. Əks-hücum əməliyyatında qazanılan təcrübəni həvəslə gənc əsgərlərə öyrədir.

Gizir Ş.Poladzadə iştirak etdiyi dərs və məşğələlərdən ətraflı söz açaraq dedi:

- Məşğələ keçmək üçün hərtərəfli şərait yaradılıb. Biz bu şəraitdən səmərəli istifadə edərək, döyüş vərdişlərini əsgərlərə aşılayırıq. Hərbi biliklərə yaxşı yiyələnmək döyüşlərdə uğur qazanmağı, düşməni məğlub etməyi daha da asanlaşdırır. Buna görə də bütün sınaqlardan üzüağ çıxırıq. Zəngin bilik, mükəmməl mənimsənilmiş döyüş vərdişləri hər addımda bizə uğur gətirir, qələbə sevinci yaşadır.

- Həm təlimlər, həm də döyüşlər zamanı tuşlayıcının üzərinə böyük məsuliyyət düşür, - deyə əsgər Elçin Namazəliyev söhbətimizə qoşuldu. - Ona görə də təlimlərdə fəal iştirak edirəm. Xidmətimin arxada qaldığı müddət ərzində özüyeriyən artilleriya qurğusunun taktiki-texniki xüsusiyyətlərini hərtərəfli öyrəndiyimə görə komandirlərimə minnətdaram. Hərbi bilik və vərdişləri dərindən mənimsədiyimə görə təlimlərdə çətinlik çəkmirəm. Tuşlayıcı kimi mənə bəslənən ümidləri həmişə doğruldaraq yaxşı nəticələr göstərirəm.

Mayor Ayaz Baxışov yenidən bizimlə söhbətə qoşularaq dedi ki, özüyeriyən artilleriya qurğusunun heyət nəfərləri Türkiyə və Azərbaycan hərbçilərinin birgə iştirakı ilə keçirilən "Qardaş yumruğu" təlimində də fəal iştirak ediblər. Zabit və əsgərlərimiz bu təlimdə də bacarıqlı olduqlarını bir daha göstərərək hədəfləri dəqiq vurublar. Yüksək peşəkarlıq nümayiş etdiriblər.

Fasilə bitən kimi artilleriyaçılar məşğələlərini yenidən davam etdirdilər. Onlar yenə də müvafiq tapşırıqları icra edir, gələcək xidmətlərində daha böyük uğurlar qazanmaq üçün döyüş hazırlıqlarını artırırdılar.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri Novruz bayramı münasibətilə hərbi hospitalı ziyarət edib



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, martın 19-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Novruz bayramı münasibətilə Müdafiə Nazirliyinin Baş Klinik Hospitalını ziyarət edib.*

Əvvəlcə hospitalın həyətində ucaldılmış Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyulub. Ulu Öndərin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

General-polkovnik Zakir Həsənov martın 5-də Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda qeyri-qanuni erməni birləşmələrinin törətdikləri təxribat nəticəsində yaralanan, eləcə də hospitalda müalicə olunan digər hərbi qulluqçularla görüşərək onların səhhəti və reabilitasiya prosesi ilə maraqlanıb, ən qısa müddətdə sağlamlıqlarını bərpa edərək xidmət yerlərinə qayıtmalarını arzulayıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Novruz bayramı təbriklərini hərbi qulluqçulara və tibb personalına çatdıran Müdafiə naziri onlara bayram sovqatları təqdim edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində bütün istiqamətlərdə qazanılan uğurlardan danışan Nazir, hərbi tibb sahəsində əldə edilən nailiyyətləri xüsusi qeyd edib.

Müdafiə naziri Türkiyədə baş vermiş zəlzələdə xəsarət alanlara tibbi yardım göstərilməsi məqsədilə Ali Baş Komandanın göstərişinə əsasən qardaş ölkəyə ezam olunan hərbi tibb personalı və hospitalın digər əməkdaşları ilə də görüşüb, yüksək peşəkarlıq nümayiş etdirdiklərinə görə onlara təşəkkürünü bildirib.



Hospitalın kollektivi və müalicə olunan hərbi qulluqçular burada yaradılan şərait, eləcə də hərtərəfli qayğı ilə əhatə olunduqlarına görə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

General-polkovnik Zakir Həsənov tibb işçilərini bayram münasibətilə təbrik edib, müayinə və müalicə olunan hərbi qulluqçulara göstərilən xidmətin daha keyfiyyətli təşkili və təkmilləşdirilməsi ilə bağlı əlavə tapşırıqlar verib.





# Azərbaycan Ordusunun kadr orqanı işçiləri ilə keçirilən təkmilləşdirmə kursu başa çatıb





*Azərbaycan Ordusunda kadr orqanı işçilərinin nəzəri biliklərinin və praktiki vərdişlərinin daha da yüksəldilməsi məqsədi ilə keçirilən təkmilləşdirmə kursu başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda təşkil olunan sınaq imtahanının sonunda buraxılış mərasimi keçirilib.

Mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Buraxılış mərasimində çıxış edən Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilov kadr orqanı işçilərinin təkmilləşdirilməsi, bu sahədə nailiyyətlərin əldə edilməsi üzrə Azərbaycan Ordusunda aparılan işlərdən danışıb. İdarə rəisi qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar müasir tələblər çərçivəsində təkmilləşdirilir.

Sonra general-mayor Elçin Xəlilov kurs iştirakçılarını qarşıdan gələn Novruz bayramı münasibətilə müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından təbrik edib, onlara gələcək xidməti fəaliyyətlərinə dair tövsiyələrini verərək uğurlar arzulayıb.

Qeyd edək ki, kurs müddətində dinləyicilərə Azərbaycan Ordusunda müasir innovativ metodlardan istifadə etməklə uğurlu kadr siyasətinin reallaşdırılması haqqında mühazirələr oxunub. Şəxsi heyətin uçotunun aparılması və təltif edilməsi, onlara fəxri adların və mükafatların verilməsi qaydaları öyrədilib.

Bundan əlavə hərbi xidmətə qəbul, planlı şəkildə yerdəyişmə (rotasiya), ehtiyata və istefaya buraxılma qaydaları, həmçinin hərbi qulluqçuların sosial məsələləri və xidmətlə bağlı digər zəruri mövzularda məşğələlər keçirilib.

# Qeyri-qanuni erməni birləşmələri üçün qanunsuz hərbi daşımalar davam edir

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, martın 24-də növbəti dəfə Xankəndi-Xəlfəli-Turşsu torpaq yolu ilə qanunsuz hərbi daşımaları icra edən kolonun hərəkəti müəyyən edilib.

Rusiya sülhməramlı kontingentinə məxsus 1 ədəd ZTR-82A döyüş maşını, ermənilərə məxsus 3 ədəd tentli KamAZ və üzərində yanacaq çəni olan 1 ədəd KamAZ avtomobilinin hərəkəti texniki müşahidə vasitələrimiz tərəfindən qeydə alınıb.

Rusiya sülhməramlı kontingenti tərəfindən həyata keçirilən bu cür fəaliyyətlər üçtərəfli Bəyanatın müddəalarının icrası ilə bağlı üzərlərinə düşən vəzifə borclarının yerinə yetirilməməsidir.

Vəzifə və öhdəliklərinin əksinə olaraq Azərbaycanın Qarabağ iqtisadi rayonunda fəaliyyət göstərən qeyri-qanuni erməni dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər maddi-texniki təminat vasitələrinin daşınmasını müşayiət etməklə sərbəst hərəkətinə şərait yaradılması əldə edilmiş razılıqların sülhməramlı kontingent tərəfindən kobud şəkildə pozulması deməkdir. Belə hallara dərhal son qoyulmalıdır.

Mütəmadi baş verən bu kimi qeyri-qanuni fəaliyyətlər Laçın yolunun Azərbaycan-Ermənistan sərhədinin son nöqtəsində Azərbaycan tərəfindən sərhəd-keçid və nəzarət məntəqəsinin qurulmasının zəruri olduğunu göstərir.

# “Heydər Əliyev İli” çərçivəsində növbəti ağacəkmə aksiyası keçirilib





Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunda "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirlər davam etdirilir.

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Müdafiə Nazirliyinin təşkilatçılığı ilə İkinci Şəhidlər xiyabanında növbəti ağacəkmə aksiyası keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Müdafiə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Yasamal rayon İcra Hakimiyyəti, ictimaiyyət nümayəndələri, eləcə də şəhid ailələri və yaxınlarının iştirak etdiyi aksiyada əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Ekoloji təhlükəsizliyin təmin edilməsinə töhfə vermək və ictimaiyyətin diqqətini yaşıllaşdırma işinin vacibliyinə yönəltmək, habelə şəhidlərimizin əziz xatirələrini əbədiləşdirmək məqsədilə keçirilən aksiyada həmişəyaşıl ağaclar əkilib.

# Ombudsman Aparatının nümayəndələri “N” hərbi hissəsində olublar





*<u>Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında imzalanan birgə tədbirlər planına əsasən, aparatın nümayəndələri “N” hərbi hissəsində olublar.</u>*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, nümayəndə heyəti şəxsi heyətin təminatı və məişət şəraiti ilə tanış olub, hərbi qulluqçularla görüşərək söhbət ediblər.

Görüşdə hərbi qulluqçuların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi və digər mövzularda fikir mübadiləsi aparılıb.

Aparatın nümayəndələri yaradılan şəraiti, şəxsi heyətlə vətənpərvərlik və təlim-tərbiyə sahəsində həyata keçirilən tədbirləri müsbət qiymətləndiriblər.

Sonda qonaqların iştirakı ilə hərbi hissənin ərazisində müxtəlif növ ağaclar əkilib, xatirə şəkli çəkdirilib.

# Növbəti “Komando başlanğıc kursu” başa çatıb





*<u>Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, ordu sıralarında xidmət edən hərbi qulluqçuların hazırlıq səviyyəsinin və bölmələrin döyüş qabiliyyətinin daha da artırılması istiqamətində görülən işlər davam edir.</u>*





Cari ilin döyüş hazırlığı planına uyğun olaraq, növbəti "Komando başlanğıc kursu"nun buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Mərasimdə çıxış edənlər məzunlara Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdıraraq hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında bu cür kursların əhəmiyyətindən danışıb, komandolara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Məzunlara sertifikatlar təqdim olunduqdan sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub, xatirə şəkili çəkdirilib.

# Novruz bayramı münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib



<u>*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Novruz bayramı ilə əlaqədar Azərbaycan Ordusunun qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, hərbi birlik və birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.*</u>

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrlərin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Şəxsi heyət tərəfindən şəhidlərimizin məzarları ziyarət olunub, hərbi qulluqçular şəhid və yaralıların ailələrinə baş çəkərək onların qayğı və istəkləri ilə maraqlanıb, bayram sovqatları təqdim ediblər.

Görüşlərdə dövlətimiz tərəfindən şəhidlərimizin xatirəsinin hər zaman uca tutulduğu, onların ailə və yaxınlarının yüksək diqqət və qayğı ilə əhatə olunduğu xüsusi qeyd olunub.

Bayram tədbirlərində çıxış edənlər yazın gəlişinin ölkəmizdə sevinc, coşqu və təntənə ilə qeyd edilməsindən, Novruz ənənələrinin tarixindən, milli-mənəvi dəyərlərimizdən biri olan Novruz bayramının xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilməsindən söhbət açıblar.



Silsilə tədbirlərdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, həmçinin incəsənət nümayəndələrinin, rayon mədəniyyət şöbələri kollektivlərinin iştirakı ilə konsert proqramları təqdim olunub.

* * *

Novruz bayramının gəlişi ilə bağlı hərbi hissə və birləşmələrdə silsilə tədbirlər keçirildi. Bayram günlərində yurdumuzun müdafiəsində dayanan zabit və əsgərlərin asudə vaxtlarının səmərəli təşkili üçün zəruru işlər görülür. Bu günlərdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "N" hərbi hissəsində tədbir keçirildi.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himnini ifa edildi.

Zabit və əsgərlərlə görüşü giriş sözü ilə açan Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin bədii iş üzrə təlimatçısı Gülxar Məmmədova Novruz bayramından söz açaraq dedi ki, hamımız üçün əziz və müqəddəs olan bu bayram əsrlərdən bəridir xalqımızın yaddaşında yaşayır. Nəsildən-nəslə ötürülərək əbədi yoluna davam edir.



Novruz bayramında təbiət yenidən cana gəlir, yurdumuza bahar qədəm qoyur. Baharın, yazın gəlişi ilə dünyamız daha da gözəlləşir. Xalqımız uzun illərdir ki, Novruz adətlərini yaşadır və onu davam etdirir. Novruz bayramı gəlişi ilə sanki həyatımıza təzə nəfəs, təzə həyat, təzə ovqat gətirir. Əvvəlki illər xalqımız bu əziz bayramı yüksək ovqatla qeyd edə bilmirdi. Çünki torpaqlarımız erməni qəsbkarlarının işğalında qalmışdı. Bu günsə hamımızın üzü gülür. Çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsində düşmənə qalib gələrək torpaqlarımızı işğaldan azad etdi. Hazırda zabit və əsgərlərimiz işğaldan azad olunmuş həmin ərazilərdə xidmət edirlər. Çox sevindiricidir ki, bu günlər dədə-baba torpaqlarımızda da Novruz tonqalları qalanır. Öz növbəmdə mən də zabit vz əsgərlərimizi qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edir, xidmətlərində uğurlar arzulayıram.

Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri Gülnar Mirzəyeva, Vüsal Ağayev, Seymur Nəzərov, Kəmalə Xəlilova, Fərman Əsgərov, Səbinə Qasımova, Yeganə Dünyamalıyeva və başqaları Novruz bayramını tərənnüm edən mahnılar oxudular. Folklor qəhrəmanları olan Kosa və Keçəl yumurta döyüşdürdülər, bayatılar söylədilər və başqa bacarıqlarını göstərdilər. Hərbi hissənin şəxsi heyəti bayram ovqatlı bir gün yaşadı.

Tədbirin sonunda polkovnik-leytenant Aqil İsmayılov Novruz bayramı ərəfəsində hərbi hissənin şəxsi heyəti qarşısında maraqlı konsert proqramı ilə çıxış etdiklərinə görə Həzi Aslanov adıan Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəhbərliyinə və yaradıcı kollektivinə dərin minnətdarlığını bildirdi.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar



Əlahiddə Ümumqoşun Orduda ixtisas hazırlığı kursları başa çatan gənc əsgərlərin döyüş təyinatlı birləşmə və hissələrə yola salınmaları münasibətilə mərasim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.

Çıxış edən zabit, əsgər və valideynlər Vətənə xidmət etmək hər bir gəncin müqəddəs borcu olduğunu bildirib, keçirilən məşğələlərdə peşəkarlaşan gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıblar.

General-mayor Məhəmməd Həsənov Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin Novruz bayramı və buraxılış mərasimi münasibətilə təbrikini şəxsi heyətə çatdırıb, gənc əsgər hazırlığı kursunun əhəmiyyətindən və hərbi hissədə xidmətin nümunəvi təşkili üçün yaradılan şəraitdən danışıb.

Bildirilib ki, Əlahiddə Ümumqoşun Orduda gənc əsgər hazırlığına xüsusi diqqət yetirilir. Gənc əsgərlərin hazırlığı proqramına uyğun olaraq keçirilən məşğələlərdə nizamnamə və hərbi qanunvericiliyin müvafiq tələbləri, eləcə də sıra, fiziki və atəş hazırlığı üzrə çalışmaların elementləri öyrədilir. Həmçinin hərbi xidmət dövründə gənclər milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda gələcəyin nümunəvi vətəndaşları kimi formalaşır, dözümlülük, möhkəmlik, müxtəlif şəraitlərə uyğunlaşmaq kimi üstün keyfiyyətlər qazanırlar. İnanırıq ki, ixtisas hazırlığı kurslarını başa vuran əsgərlərimiz məşğələlərdə qazandıqları bilik və bacarıqları növbəti xidmət yerlərində uğurla tətbiq edərək komandirlərinə və valideynlərinə hər zaman başucalığı gətirəcəklər.

Mərasimdə ixtisas hazırlığı kursunu başa vurmuş əsgərlər fiziki hazırlıq üzrə silahlı və silahsız çalışmalar kompleksini, müxtəlif atıcı silahların gözübağlı vəziyyətdə natamam sökülüb yığılmasını, minaatan qurğuların döyüşə və səfər vəziyyətinə gətirilməsini, mina sahəsinin qurulmasını və keçidlərin açılmasını, rabitə vasitələri ilə fəaliyyət göstərilməsini, kəşfiyyat hazırlığından müxtəlif elementləri praktiki yerinə yetiriblər.

Bölmələrin tribuna önündən təntənəli keçidilə mərasim başa çatıb.

## "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri" müsabiqəsi keçirilib





Cari ilin hazırlıq planına əsasən, "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri" adı uğrunda müsabiqə keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbərlərinin pedoqoji vərdişlərinin təkmilləşdirilməsi, hərbi qulluqçularla ideoloji işin düzgün aparılması qaydalarının qrup rəhbərlərinə öyrədilməsi məqsədilə keçirilən müsabiqədə əsas diqqət hərbi kollektivlərdə döyüş əzminin daim yüksək səviyyədə saxlanılması, o cümlədən xalqa, dövlətə, Ali Baş Komandana və Hərbi anda sədaqətin şəxsi heyətə aşılanması, ictimai-siyasi hazırlıq sahəsində qabaqcıl təcrübənin təbliğinə yönəldilib.

Birinci mərhələ üzrə mükafatlandırılan qaliblər Azərbaycan Ordusu üzrə keçiriləcək müsabiqədə iştirak edəcəklər.

## Əlahiddə Ümumqoşun Orduda güləş yarışı keçirilib

*Əlahiddə Ümumqoşun Orduda müxtəlif idman yarışlarının keçirilməsi davam etdirilir. Hərbi qulluqçular bu dəfə Naxçıvan Olimpiya İdman Kompleksində keçirilən güləş yarışlarında güclərini sınayıblar.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yarışdan əvvəl Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Vahid Məmmədov idmanın əhəmiyyətindən danışıb, birinciliyin məqsəd və qaydalarını idmançı hərbi qulluqçuların diqqətinə çatdırıb. Bildirilib ki, hər bir hərbi qulluqçu döyüş hazırlığı ilə yanaşı fiziki hazırlığını da daim yüksək səviyyədə saxlamalıdır. Ordumuzda idmanın inkişafı hər zaman diqqət mərkəzində saxlanılır, şəxsi heyətin idmana marağının artması istiqamətində müxtəlif işlər görülür. Keçirilən müxtəlif idman yarışları da görülən işlərin davamıdır.

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında keçirilən yarışlara isinmə hərəkətlərindən sonra start verilib.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının hakimlərinin idarə etdikləri yarışlarda güləşin yunan-roma və sərbəst növləri üzrə 13 komandadan 238 idmançı mübarizə aparıb.

Gərgin mübarizə ilə yadda qalan yarışlarda sərbəst güləş üzrə 1-ci və 3-cü yerlərə xüsusi təyinatlılar, 2-ci yerə isə motoatıcılar layiq görülüb.

Yunan-roma güləşində xüsusi təyinatlılar birinci yerdə qərarlaşıb. Motoatıcılardan ibarət komandalar isə ikinci və üçüncü yerləri bölüşüblər.

Şəxsi və komanda hesabında ilk üçlükdə yer alan qaliblərə kubok, diplom və fəxri fərmanlar təqdim edilib.





## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**24 mart 2023-cü il.**

Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində fəaliyyət göstərən qeyri-qanuni erməni silahlı birləşmələri qanunsuz fəaliyyətlərini davam etdirir.

Qeyri-qanuni erməni silahlı birləşmələrinin döyüş mövqelərinə hərbi daşımaların həyata keçirilməsi məqsədilə mühəndis və xüsusi texnikanın cəlb edilməsilə Xankəndi-Xəlfəli-Turşsu yolundan şimalda keçən yeni Xankəndi-Kosalar-Mirzələr-Turşsu yolunun çəkilməsi müəyyən edilib.

Ermənistan tərəfinin Azərbaycanın Qarabağ iqtisadi rayonunda qanunsuz fəaliyyətlər həyata keçirməklə üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozması, eləcə də sülhməramlı kontingentin üzərinə düşən vəzifə borcunu yerinə yetirməməsi bölgədə gərginliyin artmasına zəmin yaradır.

Bildiririk ki, bu kimi təxribatlar və qanunsuz fəaliyyətlər nəticəsində baş verə biləcək tələfata görə bütün məsuliyyət rəsmi İrəvanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

* * *

Martın 24-ü axşam saatlarında Ordumuzun Azərbaycan-Ermənistan şərti sərhədində və Qarabağ iqtisadi rayonunda yerləşən mövqeləri bir neçə dəfə atəşə tutulub.

Ermənistan silahlı qüvvələrinin bölmələri müxtəlif çaplı atıcı silahlardan istifadə etməklə Azərbaycan-Ermənistan şərti sərhədinin müxtəlif istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini atəşə tutub.

Bundan başqa Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Ordumuzun Xocavənd rayonu istiqamətində yerləşən mövqeləri də atəşə məruz qalıb.

Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

## Xəbərlər: hadisələr, faktlar

### ABŞ-dən Türkiyəyə silah ixracı kəskin azalıb



Amerika Birləşmiş Ştatlarından (ABŞ) Türkiyəyə silah ixracı kəskin azalıb. Bu, iki ölkə arasında münasibətlərin pisləşməsi və Türkiyənin hərbi-sənaye kompleksi ixracatının artması fonunda baş verib.

Bu barədə Stokholm Beynəlxalq Sülh Problemləri Tədqiqatı İnstitutunun (SIPRI) hesabatında deyilir.

SIPRI-nin məlumatına görə, ABŞ və Türkiyə arasında yaranmış gərginlik nəticəsində 2013-2017-ci illərdə Ankara tərəfindən Amerika silahının alışı əvvəlki 5 illik dövrlə müqayisədə əhəmiyyətli şəkildə aşağı düşüb. Türkiyə ABŞ silahı əldə edən ən iri ölkələr arasındakı 5-ci mövqeni itirərək 27-ci mövqeyə düşüb.

Buna baxmayaraq, bu dövr ərzində Türkiyə öz hərbi-sənaye kompleksinin ixracat potensialını əhəmiyyətli şəkildə artırmağa nail olub. Təqdim olunan məlumatlara əsasən, indi silah satışının həcmi üzrə 12-ci yeri tutan Türkiyə, müvafiq olaraq 13-cü və14-cü yerlərdə qərarlaşan İsveç və İsveçrəni geridə qoyur. Sözügedən dövrdə Türkiyənin silah ixracatı cəmi 69 faiz artıb.

### Şimali Koreya nüvə başlığı daşıya bilən "Hvasal-1" və "Hvasal-2" raketləri buraxıb



Martın 22-də Şimali Koreya nüvə başlığını imitasiya edən eksperimental döyüş başlıqları olan "Hvasal" seriyalı qanadlı raketləri sınaqdan keçirib.

Bu barədə "Koreya səsi" dövlət radiosu məlumat yayıb.

"Martın 22-də qanadlı raketlərlə silahlanmış bölmələrin taktiki nüvə hücumu üzrə tapşırıqların yerinə yetirilməsi məqsədilə təlimləri keçirilib. Strateji qanadlı raketlər eksperimental döyüş başlıqları olan nüvə silahı ilə təchiz edilib", - dövlət radiosu qeyd edib.

Təlimlər zamanı "Hvasal-1" və "Hvasal-2" seriyalı dörd raket buraxılıb. Raketlər Yapon dənizi üzərindən 1500-1800 kilometr məsafədə uçub və şərti hədəfləri vurub. Raketlərdən biri nüvə partlayışına nəzarət sistemlərinin və imitasiya qurğularının etibarlılığını yoxlamaq üçün 600 metr yüksəklikdə partladılıb.

### Yaponiyada "DSEI-Japan" hərbi texnologiyalar sərgisi açılıb



Martın 15-də Yaponiyanın Tiba prefekturasında "DSEI-Japan" hərbi texnologiyalar sərgisinin açılışı olub.

Təşkilatçıların sözlərinə görə, ABŞ, Böyük Britaniya, Türkiyə, Avstraliya və İsrail də daxil olmaqla, sərgiyə dünyanın 24 ölkəsini təmsil edən kompaniyalar öz texnologiyalarını və silahlarını çıxarıblar.

Üç gün davam edən sərgi çərçivəsində keçirilən konfransın iştirakçıları beynəlxalq təhlükəsizliyin müasir çağırışlarını və yeni hərbi texnologiyaları, həmçinin Ukraynadakı vəziyyəti müzakirə ediblər. "DSEI-Japan 2023" Asiya regionunda və onu əhatə edən dənizlərdə təhlükəsizliyin təmin olunmasına çağırışı qiymətləndiriblər.

2019-cu ildən keçirilən sərgi ilk növbədə Asiya-Sakit Okean regionu istehsalçılarına istiqamətlənir, lakin dünyanın digər ölkələrindən olan kompaniyalar da burada yeni silahlarını, avadanlıqlarını və texnologiyalarını nümayiş etdirir.

**AZƏRTAC-ın materialları əsasında**

*Könlüm şeir istəyir*

# “Sən tarixlər yaratdın, tarix yaşadır səni”

***Böyük tarixi şəxsiyyət kimi, "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" qüruru ilə yaşayan ən böyük azərbaycanlı kimi Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini vermişdi, təkcə bu gün üçün deyil, sabahlar üçün Azərbaycanın inkişaf strategiyasını da müəyyən etmişdi. Müstəqil Azərbaycanın qurucusu və memarı olan Ümummilli Liderin həyat və fəaliyyətinin öyrənilməsi həm müasir Azərbaycanın müstəqillik və inkişaf tarixinin tədqiqi, həm də əsl liderlik xüsusiyyətlərinin, vətən-xalq sevgisinin gələcək nəsillərə çatdırılmasında ən gözəl nümunədir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi Azərbaycan dövlətçiliyinə böyük sədaqətdir. Dahi şəxsiyyət Heydər Əliyev bu gün həm tarixdə, həm də xalqın yaddaşında və ürəyində yaşayır. Bu ömür "Könlüm şeir istəyir" rubrikasının budəfəki sayını Ulu Öndərin əbədiyaşar xatirəsinə həsr edirik.***

**"Azərbaycan Ordusu"**

### Xəlil Rza Ulutürk

**Dədə Heydər - Atatürk**

Azadlıq Allahı tək əyləşib öz yerində,
Yerin-göyün nuru var
peyğəmbər gözlərində.
Sadəliyi nur saçır, əzəməti dərində.
Gedir, polad çiynində Kəpəz,
Qoşqar boyda yük.
Dədə Heydər - Atatürk.

Dərin mavi gözləri sakit yanan
od-ocaq,
Alovunda satqınlar yanacaq,
kül olacaq.
Qaranlıqda işıqdır - o işığa yol açaq.
Məsləki varlığından böyükdür,
min qat böyük.
Böyüklük heykəlidir
Dədə Heydər - Atatürk!

Dörd tərəf qar-qiyamət, sərt qış...
O, güllü yazdır,
Dinc, mülayim səsi də
qaynar bir ehtirasdır.
Ərzurumdan Xəzərə şığıyan
Xan Arazdır.
Dalğasında dönüklər ağ köpükdür,
boz köpük,
Dalğalanır nəhr tək
Dədə Heydər - Atatürk.

Azərbaycan, Türkiyə... Daş qala -
qoşa səngər,
Bütün qasırğalara birləşməklə
sinə gər.
Bu birlik qarşısında düşmən
tük salacaq, tük...
Qucur iki sahili
Dədə Heydər - Atatürk.

Adın-sanın yenilməz bir ordudu,
İndi odlar diyarının özüsən...
Azərbaycan Heydərlərin yurdudu,
Gələcəyə baxanların gözüsən.

### Fikrət Qoca

**Vətən oğlu**

Vətən oğlu, ata oldun bizə sən,
Ata kimi qayğımızı çəkirdin.
Şair kimi həssas idin sözə sən,
Danışıqda sözdən sözü çəkirdin.

Ölkə olduq sən arzuna çatanda,
Bir əlin od, bir əlin su olurdu.
Millət rahat xumarlanıb yatanda,
Yuxun bir an quş yuxusu olurdu.

Yurdumuzda şan-şöhrətli hər nə var
Yatmadığın günlər, aylar, illərdi;
Ziyarətə gəlir səni bu yollar...
Göz yaşımız məzarında güllərdi.

Sənin rəmzin Azərbaycan bayrağı,
Baş qoymağa, can verməyə hazırıq.
Dan ulduzum - yurdumuzun mayakı,
Şer də bir təsəllidir, yazırıq.

### Zəlimxan Yaqub

**Bir dahi doğulub gəldi dünyaya**

Naxçıvanda doğuldu
23-ün mayında.
Güllü bahar fəslinin
ən işıqlı ayında.
Anası İzzət xanım,
atası Əlirza
Şükürlər oxudular
onlara oğul verən
Tanrıya, İlahiyə,
bu bahara, bu yaza.
Ata-ana ad qoyub
adına Heydər dedi,
Bu həyatın barını
dərdikcə, hey dər, dedi.
O boy atıb böyüdü
gündə bir darı boyda,
Ona layla çalanın
xoş arzuları boyda.
Hər anla, hər saatla,
hər fəsillə böyüdü.
Damar-damar bərkidi,
pillə-pillə böyüdü.

### Rafiq Yusifoğlu

**Ulu öndər**

Heykəlinə baxıram
Rəhbər xəyala dalıb.
Çiçəklənən ölkəmiz
Öndən yadigar qalıb.

Səsini dinləyəndə
Güc gəlib qolumuza.
Zəkası Günəş kimi
Nur səpib yolumuza.

Doğma Azərbaycanı
Gülüstana döndərib.
Hamımızın qəlbində
Heykəli var öndərin.

Vətənin dar günündə,
Onun dadına çatdın.
Üçrəngli bayrağımı,
Zirvələrə ucaltdın.

Yurdumuzun üstündən,
Qovdun qara kölgəni.
Məhv olmaqdan qorudun,
Xilas etdin ölkəni.

Çiçəklənən ölkəmiz,
Gülüstana oxşayır.
Özün olmasan belə,
Əməllərin yaşayır.

### Rüstəm Sadiqli

**Bir işıq doğdu yurda o Vətənə gələndə**

Bir işıq doğdu yurda
O Vətənə gələndə
Səs verdi millətinə,
Söz verdi millətinə.
Yaratdı Azərbaycan,
Hüzür dolu bir məkan.
Öpdü ulu bayrağı,
Öpdü Quran kitabın.
Azərbaycan adını
Azərbaycan adına
Yaydı dünyalara
Millətlər sırasında,
Qövmlər arasında,
Bu adı əks etdirdi
Qayalara daşlara,
Yüklədi yaddaşlara.
Elin qan yaddaşını
Unutmadı heç zaman,
Millətlərə göstərdi
Azərbaycan hünərin,
Koroğlu cəsarətin,
Bir Nizami hikmətin
Düşmənlərə söz ilə
Böyük zərbələr vurdu
Elm verdi gəncliyə,
Yetirdi kamilliyə.

İndi də yaşayır o,
Minlərcə ürəklərdə
O, ürəklər Səninlə
Döyünür Ulu Öndər!
Neçə ürək səninlə
Öyünür, Ulu Öndər!

### Leyla Əliyeva

**Ulduzlar şeiri**

Ulduzlara uçan quşa dönəydim,
Ay da yollarıma nur ələyəydi.
Məğrur yerişinlə qoşa dönəydin,
Sənə yer üzündə yer eləyəydim.

Dinlə kədərimin pıçıltısını -
Mən yaxşı bilirəm ayrılıq nədi!..
Küləklər könlümün qışqırtısını
Kaş ki, kainata yaya biləydi.

Könüllər yaşadır gur nəfəsini,
Sənsiz hər bir anın öz qüssəsi var.
Müqəddəs səsinin xatirəsini
Anlada bilərmi çağlayan çaylar?

# İdman

## Azərbaycan boksçusu dünya çempionatını bürünc medalla başa vurub



Qadın boksçular arasında Hindistanın paytaxtı Yeni Dehlidə keçirilən dünya çempionatında yarımfinal mərhələsi yekunlaşıb. Bu mərhələdə Azərbaycan millisinin boksçusu Aynur Rzayeva da rinqə çıxıb.

81 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən yığmamızın üzvü qazaxıstanlı Lazzat Kunqeybayeva ilə üz-üzə gəlib. Görüşdə rəqib qələbə qazandığından finala yüksəlib. A.Rzayeva isə mundialı bürünc medalla başa vurub.

2,4 milyon ABŞ dolları mükafat fondu olan dünya çempionatının final döyüşləri martın 25-də və 26-da keçiriləcək. Altmış beş ölkədən 300-dən artıq boksçunun qatıldığı yarışın qalibi 100 min, finalçısı 50 min, bürünc medalçısı 25 min dollar qazanacaq.

## Stolüstü tennisçilərimiz Antalyada daha bir medal qazanıblar



Stolüstü tennisçilərimiz Onur Quluzadə ilə Yağmur Məmmədli Dünya Stolüstü Tennis Təşkilatının (WTT) Antalyada təşkil etdiyi "WTT Youth Contender" yarışının qarışıq-qoşa turnirində bürünc medala layiq görülüblər.

Səkkizdəbir finalda Türkiyəni təmsil edən Nehir Çinar - Çelik Yağız cütünə qalib gələn idmançılarımız ardınca Elif Akyürek - Ahmed Gülənler (Türkiyə) tandemini də mübarizədən kənarlaşdırıblar. Yarımfinalda yerli Görkem Ocal - Busra Demir cütünə uduzan stolüstü tennisçilərimiz fəxri kürsünün üçüncü pilləsində qərarlaşıblar.

Yarışın ilk günlərində Yağmur Məmmədli şəxsi mübarizədə yarışın gümüş, Mərziyyə Nurmətova isə bürünc mükafatını qazanıb.

## Voleybolçumuz Çağırış kuboku yarışlarında gümüş medal qazanıb



Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin üzvü Yelizaveta Ruban avrokubokda gümüş medal qazanıb.

Hücumçumuzun formasını geyindiyi Rumıniyanın "CSM Lugoj" klubu Çağırış kuboku yarışlarının finalında İtaliyanın "Reale Mutua Fenera Chieri" komandası ilə qarşılaşıb.

Final çərçivəsində keçirilən hər iki oyunda rəqib 3:0 hesabla qalib gəlib. Beləliklə, voleybolçumuzun komandası turnirin gümüş medalına sahib olub.

## Ronaldo millinin heyətində ən çox oyun keçirmə rekorduna imza atıb



Portuqaliyalı hücumçu Kriştiano Ronaldo rekorda imza ataraq, milli komandanın heyətində ən çox oyun keçirən futbolçu ünvanına sahib olub.

38 yaşlı hücumçu Portuqaliya millisinin heyətində 2024-cü il Avropa çempionatının seçmə mərhələsində Lixtenşteynlə oyuna ilk 11-də başlayıb. Bu, onun millidə 197-ci oyunudur.

Ronaldo Portuqaliya millisinin tərkibində 2016-cı ildə Avropa çempionatının qalibi, qitə çempionatının gümüş və bürünc mükafatçısı, həmçinin 2019-cu ildə UEFA Millətlər Liqasının qalibi olub.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenant Əhmədzadə Həsən Alik oğluna məxsus MN № 0055042 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Həsənalıyev Cabir Müsafir oğluna məxsus AD № 0157205 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 155
Nüsxə 4725